# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## S Ə R Ə N C A M

**Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcə layihəsinin hazırlanması haqqında**

Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcə layihəsinin, muxtar respublikanın iqtisadi və sosial inkişaf proqramlarının və proqnoz göstəricilərinin, investisiyaların istiqamətlər üzrə layihəsinin hazırlanaraq aidiyyəti üzrə vaxtında təqdim edilməsi məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi aidiyyəti üzrə növbəti il və sonrakı üç il üçün “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 11.5-ci maddəsində qeyd olunan məlumatları, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi isə investisiya proqramının istiqamətlər üzrə ilkin layihəsini 2025-ci il aprel ayının 15-dək Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlara uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi 2026-cı il və sonrakı üç il üçün büdcənin layihəsini, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi isə növbəti büdcə ili və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasını və proqnoz göstəricilərini 2025-ci il iyun ayının 20-dək Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

3. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi:

3.1. cari il üçün Naxçıvan Muxtar Respublikasının ortamüddətli iqtisadi və sosial inkişaf proqramını dəqiqləşdirmək məqsədilə 2024-cü ilin ilkin statistik məlumatlarını 2025-ci il fevralın 10-dək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə və Maliyyə Nazirliyinə təqdim etsin;

3.2. növbəti büdcə ili və sonrakı üç il üçün Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial inkişaf proqramlarının və büdcə layihəsinin hazırlanması üçün zəruri statistik məlumatların Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə, Maliyyə Nazirliyinə və digər aidiyyəti təşkilatlara təqdim edilməsini təmin etsin.

4. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2026-cı il və sonrakı üç il üçün muxtar respublika büdcəsinin proqnozunun (gəlir, xərc, o cümlədən investisiya xərclərinin məbləği) dəqiqləşdirilmiş variantını 2025-ci il iyunun 30-dək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

4.2. 2026-cı il və sonrakı üç il üçün vergilər, rüsumlar, dövlət əmlakının və dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən, daxilolmalar və digər gəlirlər üzrə proqnoz göstəricilərini Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə, gömrük

yığımları (yol vergisi) üzrə proqnoz göstəricilərini isə aidiyyəti gömrük orqanı ilə razılaşdıraraq, nəticələrinin 2025-ci il oktyabrın 15-dək müvafiq protokollarla rəsmiləşdirilməsini təmin etsin.

5. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə uyğun olaraq muxtar respublika büdcəsinin layihəsi ilə birlikdə aidiyyəti dövlət orqanları tərəfindən hazırlanan sənədlərin qanunvericiliklə müəyyən olunmuş müddətlərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edilməsi üçün həmin sənədlərin icmallaşdırılması işləri Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə həvalə edilsin.

6. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

6.1. 2025-ci il üçün dəqiqləşdirilmiş, 2026-cı il və sonrakı üç il üçün Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial inkişaf üzrə proqnoz göstəricilərinin ilkin proqnozlarını 2025-ci il martın 15-dək, dəqiqləşdirilmiş variantını 2025-ci il iyunun 1-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

6.2. 2026-cı ildə özəlləşməyə çıxarılacaq obyektlərdən daxilolmaların proqnoz göstəricilərini 2025-ci il iyunun 1-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

6.3. 2026-cı il və sonrakı üç il üçün dövlət investisiya proqramlarının istiqamətləri və digər dövlət proqramları üzrə nəzərdə tutulmuş investisiyayönümlü layihə və tədbirlər üçün tələb olunan vəsaitə dair ilkin göstəriciləri 2025-ci il martın 15-dək, dəqiqləşdirilmiş göstəriciləri, həmçinin növbəti il üçün muxtar respublika büdcəsinin layihəsinə uyğunlaşdırılmış dövlət investisiya proqramının istiqamətlər üzrə layihəsini 2025-ci il iyunun 1-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

7. Nazirliklərin, komitələrin, idarələrin, təşkilatların və dövlət müəssisələrinin rəhbərlərinə, digər dövlət orqanlarına tapşırılsın və bələdiyyələrə tövsiyə edilsin ki, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təlimat məktubuna uyğun olaraq lazım olan materialları iqtisadiyyatın müvafiq sahələrinin inkişafının təhlili əsasında növbəti büdcə ili və sonrakı üç il üçün Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial inkişafına dair proqnoz göstəricilərini hazırlamaq məqsədilə 2025-ci il aprelin 25-dək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

8. Nazirliklərin, komitələrin, dövlət idarə və təşkilatlarının, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərinin rəhbərlərinə, digər dövlət orqanlarına, dövlət sifarişi ilə büdcə hesabına təyinatlı tədbirlərin həyata keçirilməsini təmin edən publik hüquqi şəxslərə və büdcədən maliyyə yardımı alan təşkilatlara tapşırılsın və bələdiyyələrə tövsiyə edilsin ki:

8.1. 2026-cı il və sonrakı üç il üçün büdcə layihələrini və büdcənin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyə tutumu barədə məlumatları (hər bir proqram və tədbir üzrə ayrılıqda göstərilməklə) müəyyən edilmiş formalara uyğun olaraq 2025-ci il iyunun 1-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə, 2024-cü il üçün Dövlət Proqramlarında və məqsədli tədbirlər üzrə nəzərdə tutulmuş işlərin və layihələrin icrasına dair məlumatları isə (illik nəticə indikatorlarını da göstərməklə) 2025-ci il martın 1-dək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

8.2. büdcə vəsaitinin səmərəli istifadəsini təmin etmək məqsədilə funksional təsnifatın müvafiq bölmələri çərçivəsində inzibati təsnifata uyğun olaraq, boş (vakant) ştatlar və müddətli əmək müqaviləsi ilə işə götürülən işçilər (vakant ştatların vəzifə adı, sayı və vəzifə maaşı

göstərilməklə) barədə məlumatları hər rübdən sonrakı ayın 10-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

8.3. 2026-cı il və sonrakı üç ilin büdcə layihəsi hazırlanarkən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 aprel tarixli 53 nömrəli Qərarı ilə təsdiq edilmiş "Büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi Qaydası"nın tələblərinə əməl etsinlər.

9. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondunun və "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsi "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini 2025-ci il iyunun 1-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

10. Nazirliklər, komitələr, idarələr və digər büdcə təşkilatları, digər dövlət orqanları, dövlət sifarişi ilə büdcə hesabına təyinatlı tədbirlərin həyata keçirilməsini təmin edən publik hüquqi şəxslər və büdcədən maliyyə yardımı alan təşkilatlar "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.12-ci maddəsinə müvafiq olaraq 2026-cı il üçün büdcə xərcləri üzrə (büdcədənkənar dövlət fondları və büdcədənkənar vəsaitlər üzrə xərclər də daxil olmaqla) layihələrini Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdıraraq nəticələrini 2025-ci il oktyabrın 15-dək protokolla rəsmiləşdirsinlər.

11. Mərkəzi icra hakimiyyəti orqanları və onların struktur bölmələri, büdcədən maliyyələşdirilən büdcə təşkilatları, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq digər hüquqi şəxslər, bələdiyyələr, büdcə və büdcədənkənar dövlət fondları "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.13-cü maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının növbəti büdcə ili üzrə büdcəsi və sonrakı üç il üçün büdcənin göstəricilərinin hazırlanması üçün Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi tərəfindən tələb olunan, habelə növbəti büdcə ili və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf üzrə proqnoz göstəricilərinin hazırlanması üçün Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən tələb olunan əlavə əsaslandırıcı materialların və hesablamaların təqdim edilməsini təmin etsinlər.

12. Muxtar respublika büdcəsinin gəlirlərinin icrasını təmin edən orqanlar, nazirliklər, komitələr və büdcədən maliyyələşən və maliyyə yardımı alan digər təşkilatlar növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini tərtib edərkən bu Sərəncamdan, eləcə də "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər vəzifələri keyfiyyətlə və müəyyən olunmuş icra müddətlərində yerinə yetirilməsini təmin etsinlər.

13. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "30" yanvar 2025-ci il

№ 6s